# Qaşqaylar və onların folkloru

Folklorşünas alim Əli Şamilin "Qaşqaylar və onların folkloru" kitabını oxuculara təqdim edirik

*əvvəli ötən saylarımızda*

**Xosrov xan İsmayıl xan oğlu**

İsmayıl xan Sövlətüddövlənin oğlanları Məhəmmədnasirin, Xosrovun, Məlikmənsurun, Məhəmmədhüseyinin də ömür yolu keşməkeşli olub. Məlikmənsur xan xatirələrini yazsa da, sağlığında nəşr edilməyib. Cəfər Ayvazi Yadikuri Məlikmənsur xanın xatirələri haqqında verdiyi bilgidən öyrəndim ki, farsca yazılmış xatirələrin bir hissəsini araşdırıcılardan Kaveh Bayat və Mənsurnasir Tayibi Məlikmənsur xanın ölümündən sonra, yəni 2013-cü ildə Tehrandakı Namek nəşriyyatında "Xatirat-ı Məlik Mənsur xan Qaşqayi" (Məlik Mənsur xan Qaşqayinin xatirələri) adı ilə nəşr etdiriblər. İlk təhsilini atasının dəvət etdiyi müəllimlərdən alan Məlikmənsur Tehrandakı Əlburz Kollecini bitirib. Sonra Böyük Britaniyaya gedərək Oksford Universitetində oxuyub. Əkinçilik və tarix sahəsində ixtisaslaşıb. Qaşqay tarixi və mədəniyyəti haqqında araşdırmalar aparıb. Oradan Almaniyaya gələn Məlikmənsur və Məhəmmədhüseyin atalarının Rza şah tərəfindən zindanda öldürülməsindən xəbər tutduqdan sonra Berlində İranlılarla birlikdə şaha qarşı siyasi kampaniyalar təşkil edib və hərbi sahədə biliklərini genişləndiriblər. Bundan xəbər tutan İran hökuməti qardaşların vətənə dönmələrinə qadağa qoyub. İkinci Dünya Savaşında Rza şah Pəhləvi özünü tərəfsiz dövlətin başçısı elan etsə də, Sovetlər Birliyi quzeydən, Böyük Britaniya güneydən ordularını yeridərək ölkəni işğal ediblər. Hökumət qoşunları qorxaqcasına təslim olub. Bir zaman böyük həvəslə şah elan etdikləri, Pəhləvi soyadı verdikləri Rzanı ölkədən aparıb, şahlıq tacını oğlu Məhəmməd Rzanın başına qoyublar. Tehranda nəzarətdə saxlanılan İsmayıl xan Sövlətüddövlənin oğlanları Məhəmmədnasir xan və Xosrov xan yaranmış hakimiyyət boşluğundan istifadə edərək Qaşqayların yanına gəlirb və elinin başına keçiblər. Az bir zamanda elin əli silah tutanlarını səfərbərliyə alaraq zor gücünə hökümətin əskəri birliklərindən və polisindən silah və hərbi sursat alıblar. Qaşqayların silahlanması istər hökuməti, istərsə də işğalçıları bərk narahat edib. Öncə kiçik toqquşmalar baş verib. Bu toqquşmalarda Qaşqaylar gözəl təcrübə qazanıblar. İllərlə Tehranda çalışan Alman zabitləri Şults Holtus (Schulz Holtus) və Konistantin Yalop Hummel ingilislərin əlinə keçməmək üçün Qaşqayların yanına qaçıblar. Orada Qaşqaylara əllərindən gələn yardımı etməklə dövlətlərinə xidmət etmiş olublar. Onlar Fəraşbənd şəhərində Qaşqaylara hərbi sursat əldə etməkdə və fövqəladə vəziyyət yarandıqda təyyarənin enməsi, yanacaq götürməsü üçün uçuş-eniş zolağı yaratmaqda yardımçı olublar.

Böyük Britaniyanın kəşfiyyatı bundan xəbər tutub. Bölgədəki Böyük Britaniya ordusunun komandanı, general Freyzir Qaşqayların döyüş qabiliyyətinə yaxşı bələd idi. Birinci Dünya Savaşında o Abadah şəhərindəki İngilis hərbi bazasının rəhbəri olmuşdu. Qaşqay silahlıları buraya basqın edib bazanı ələ keçirəndə Freyzir zorla qaçıb canını qurtara bilmişdi. Buna görə də general Freyzirin Qaşqaylara qarşı bir ədavəti vardı. Lakin Qaşqayların döyüş qabiliyyətinə bələd olduğu üçün onlarla açıq döyüşə girmək istəmirdi. Öncə Məhəmmədnasir xanla danışığa gedir. Təklif edir ki, Alman zabitlərini təhvil verərsə, qarşılığında 5 milyon tümən pul verəcək və İran hökümətinə təzyiq edəcək ki, Qaşqayların muxtariyyatını rəsmən tanısın. Qaşqaylar bu təklifin arxasında başqa məkirli niyət olduğunu bildiklərindən razılaşmırlar. Böyük Britaniya hökuməti problemi həll etmək üçün 1942-ci il dekabrın 7-də general Fitsroy Maklini (Fitzroy Maclean) İrana göndərir. General məsələni güclə həll etməyə çalışır. Fars bölgəsindəki İngilitərə və İran əsgəri birliklərini

Qaşqayların üzərinə göndərir. Hər cür təchizatlı 30 minlik ordu Cehrom, Şəhrikürd, Şiraz, Firuzabad və Kazerunda Qaşqay özünümüdafiə dəstələrinin üzərinə hüçuma keçsə də, böyük itki verərək geri çəkilməli olur. Orduda bir moral pozuqluğu yaranır. Tehran hökuməti məcburiyyət qarşısında qalaraq Qaşqaylarla danışıqlara gedir. Danışıqlar nəticəsində Qaşqaylar savaşda və əsgəri birliklərə basqın nəticəsində əldə etdikləri silahları geri qaytarır. Hökümət də onların özünüidarə sistemi ilə razılaşır. Məhəmmədnasir xanın Firuzabaddan məclisə deputat və kiçik qardaşı Xosrov xanın Qaşqay elxanı seçilməsini qəbul edir. Hökumətlə Qaşqaylar arasındakı gərginliyin azalmağa doğru getdiyi bir vaxtda xaricdə olan Məlikmənsur xan və Məhəmmədhüseyn xan vətənə dönmək üçün hökumətə müraciət edir. Lakin onların bu müraciəti olumsuz qarşılanır.

Hökumətin belə sərt mövqe tutması heç də təsadüfi deyildi. Cəfər Ayvazi Yadikuru Məlikmənsur xanın xatirələrindən etdiyi tərcümə məsələyə aydınlıq gətirir. 1943-cü ilin payızın əvvəlində Almaniyadan İstanbula gələn qardaşları vali hörmət və ehtiramla qarşılayır. Onlara bildirir ki, on gün sonra prezident İsmət İnönü onlarla Ankarada görüşəcək. Qardaşlar Ankaraya gəlirlər. Lakin İsmət İnönü ilə görüşə bilmirlər. Deyirlər ki, prezident zəlzələ bölgəsinə gedib.

Cəfər Ayvazi Yadikuri xatirələr kitabınıdan etdiyi bir parça belədir: "Biz Ankaraya getdik və Karpıç hotəlində qaldıq. Bazar günü səhər vaxtı, Baş bakan Saracoğlu və diş işləri bakanı Mənəməncioğlu, ayrı vəzirlər, Türkiyənin Tehrandakı elçisi Cəmal Hüsnü hotelə təşrif gətirdilər. Biz də onlara öz sayğı və ehtıramımızı göstərdik. Saracoğlu bakanlarla bizi tanış etdikdən sonra dedi ki, cumhur başkanı bura gələcəkdi, ancaq bildiyiniz kimi deprem (zəlzələ) olduğundan vəziyyətlə tanış olmaq, xalqa kömək göstərmək üçün oraya getmişdir. Cumhur başkanı mənə tapşırdı ki, onun adından sizə xoş gəldin deyim. Sonra İran qoşununun Qaşqayı elinə hücüm etdiyyindən danışdı. Saracoğlu bəy dedi ki, bizim Tehrandakı elçimiz Cəmal Hüsnü Qaşqaylarla bağlı gördüyü işlər haqqında sizə bilgi verəcək. O, telefonunla kiminsə aradı. Biri gəldi və bir neçə dosy gətirdi qoydu Cəmal Hüsünü qarşısına. Cəmal Hüsnü də həmin dosyalara baxıb dedi:

"O zaman ki, İran İngilislər tərəfindən işğal olundu, sizin obanız (ailəniz), yəni Nasir xan, Xosrov xan və ananız Tehrandan güneyə qaçdılar. İran dövləti qoşun hazırladı ki, İsfahana və Fars vilayətinə göndərib Qayqayların yaşadıqları yerlərə hücum etsinlər. Hökumət fərmandeh Şahbəxtiyi bölgəyə yollamamışdan öncə, hərbiçilər, polislər və dövlət adamları ilə Qaşqay tüfəngçiləri arasında bir para kiçik çatışmalar olmuşdu.

Çatışmalarda Qaşqay tüfəngçiləri hərbi hissələrə və polis bölmələrinə basqın edib onları tərksilah etdiklərindən əllərinə xeyli silah və sursat keçirmişdilər. Buna görə ağır bir savaş başlamışdı. Bu arada sizin əski düşməniniz, Qəvvamülmoliki də Fars hakımı təyin edimişdi. Mən də bu haqqda Ankaraya geniş raportlar göndərmişdim".

Baş bakan Saracoğlu dedi ki, biz həmin raportları alan kimi İran şahına rəsmi şəkildə bildirdik. Ona xatırlatdıq ki, Qaşqayılar Türkdürlər və Sizin Türkləri yox etmənizə izin verməyəcəyiz.

Cenə Cəmal Hüsnü sözü davam etdirərək dedi: "Şah Tehrandakı bütün ölkələrin elçilərini qonaqlığa çağırmışdı. O, qonaqlıqda danışarkən dedi: "Mən bir qoşun yollamışam ta Qaşqayı elini yox edə". Sonra mənə sarı baxdı. Hamı şahın şərəfinə badə qaldırdı. Ancaq mən nə şərab badəsini qaldırdım, nə də içdim. Bu məsələni Türkiyə hökumətinə bildirdim. Həmin qonaqlıqdan sonra sizin qardaşlarınıza və elinizə qarşı bir savaş başlandı, Amma dövlət güçləri heç irəliləyə bilmədi. Bu keçərgi bir məsələydi, çünki hökumət Qaşqay elini birdəfəlik aradan götürməyi qərara almışdı. Biz yaxşı bilirdik ki, bu məsələnin görünən tərəfi idi. Qaşqay bölgəsinə hücum planı İran hökumətinin olsa da arxasında Böyük Britaniya dururdu. Əslində bu bir İngilis fitnəsiydi. Buna görə də hökümətimiz Qaşqaylara qarşı savaşın durdurulması üçün Böyük Britaniya yetkililəri ılə danışıqlara getdi".



Söhbətin bu yerində yenə Saracoğlu və Mənəmancioğlu söhbətə qarışdılar. Dedilər ki, biz İran şahını xəbərdar etdik. Dedik ki, əğər Qaşqayılarla savaşı davam etdirsəniz biz məcburuq İranda yaşayan minlərlə Türkün öldürülməsini qarşısını alaq. İrana ordu yeridib Türklərə kömək edəcəyik. Özü də bu söz heç də bilef (boğazdan yuxarı söz) deyil. Biz bu planı hazırlamışıq və əmin olung ki, icra etməyə də gücümüz var. Baş bakan Saracoğlu dedi ki, "Dövlət bakanlarının məşvərəti və Cumhur Başkanı İsmət İnönünün tapşırığı ilə İngilis Baş bakanı, Çörçil ilə danışdıq. Ona bildirdik ki, İrandakı İngilis Fərmandehləri (Ordu komandirləri) İran orduları ilə birgə Qaşqayıların üzərinə hücuma keçsələr, onda biz rəsmi şəkildə müharibəyə qoşulacağıq. Xüsusən onu da vurğuladıq ki, İranda bu əməliyatı hazırlayan və ona rəhbərlik edən general Ferəyzir Birinci Dunya Savaşında Abadehdəki İngilis Hərbi bazasının fərmandehsi olub. Qaşayılar onun əsgəri birliklərini darmadağın edib, hərbi bazanı da ələ keçirib. General Ferəyzir canını güc bala qurtarıb. Buna görə də general Ferəyzirin Qaşqayılara çox özəl bir kinə və düşmənçiliyi var".

Türkiyənin hökumət yetkililri ilə görüşdən sonra qardaşlar vətənə dönməyi qərara alırlar. İranın quzeyi Rus işğalı altında olduğundan oradan Qaşqay elinə keçməyin mümkünsüz olduğunu düşünürlər. Qərara alırla ki, Suriyaya getsinlər. Oradan İraqa keçsinlər. İraqdan da Qaşqay elinə keçmək asan olar. Suriyaya gələn qardaşlar İraqa keçmək istərkən Hələbdə İngilislərin əlinə keçirlər. İngilislər onları Faşist Almaniyası ilə işbirliyində suçlayıb mehakimə etmək adı ilə Qahirəyə aparırlar. İngilislər İran hökuməti vasitəsilə Məhəmmədnasir xanla gizli danışığa gedirlər. Xəbərdarlıq edirlər ki, qardaşlarını Alman zabitləri ilə dəyişməsələr onları öldürəcəklər. Qardaşlarının həyatı təhlükədə olduğunu görən Məhəmmədnəsir xan istəməsə də, onların təklifi ilə razılaşır. Firuzabad şəhərindəki Alman zabitləri Şults Holtus (Schulz Holtus) və Konistantin Yalop Hummeli verib qardaşlarını alır.

İsmayıl xan Sövlətüddövlənin kiçik oğlu Xosrov xan 15, 16, 17-ci seçimdə millət vəkili seçilir. 1951-ci ilin 20 martında neftin milliləşdirilməsi haqqında qanunun qəbulunda xüsusi fəallıq göstərir, Milli Şura Məclisini və Baş vəzir doktor Məhəmməd Müsəddiqin yeritdiyi siyasəti müdafiə edir. 1953-cü il avqustun 19-da İngilis və Amerika xüsusi xidmət orqanlarının təşkilatçılığı ilə doktor Məhəmməd Müsəddiq hakımiyyətdən uzaqlaşdırılanda Xosrov xan və Məhəmmədnasir xan 70 minlik bir Qaşqay süvari ordusu ilə onu qorumağı təklif edirlər. Ovçuluğu və tüfəngdən məharətlə istifadə etməsi, adamlara təsir güçü ilə ad çıxarmış Xosrov xan Məhəmməd Rza şahı və İranın rəhbər vəzifədə işləyən bir çox məmurlarını qorxuya salır. Elə buna görə də, şah hər iki qardaşı ölkədən çıxarır. Onlar 25 il Avropada sürgün həyatı yaşamalı olur. 1979-cu il İran İslam inqilabından sonra Xosrov xan Amerikadan vətənə dönür və Firuzabaddan millət vəkili seçilir. Lakin onun vəkillik sənədini İslam Keşikçiləri təsdiq etmirlər. Yeni hökumətin nümayəndələri ilə aralarında yaranan ziddiyətə görə Şiraza dönən Xosrov xan Qaşqay tüfəngçilərini də başına yığıb dağlara çəkilir.

*ardı var...*